## XATİRƏSİNİN ƏBƏDİLƏŞDİRİLMƏSİ

### *Qəbirüstü abidəsi*



Tbilisidə Azərbaycanın görkəmli ictimai xadimlərin dəfn olunduğu memorial qəbiristanlığı mövcuddur. Görkəmli Azərbaycanlılar panteonu adlanan qəbiristanlıqda Mirzə Fətəli Axundov, Mirzə Şəfi Vazeh, Fətəli xan Xoyski, Həsən bəy Ağayev və s. kimi görkəmli şəxslər dəfn edilib. Panteon Botanika bağının ərazisində, köhnə müsəlman qəbiristanlığının yerində yerləşir.

1996-cı ilin mart ayında Fətəli xan Xoyskinin qəbirüstü abidəsinin açılışı olmuşdur. Mərasimdə artıq Azərbaycanın prezidenti seçilən Heydər Əliyev də iştirak etmişdir.

2006-cı ildə Heydər Əliyev Fondu panteonda dəfn edilmiş şair Mirzə Şəfi Vazehin, Mirzə Fətəli Axundzadənin, Həsən bəy Ağayevin, Fətəli xan Xoyskinin qəbirüstü abidələrinin yenidən qurulması və xiyabanın yaradılması işlərini həyata keçirmişdi.

Təşkil edilmiş bir neçə bərpa edilmələrə baxmayaraq, 2012-ci ilin əvvəlində panteon baxımsız vəziyyətə düşdü, lakin ilin sonunadək qəbiristanlıq Azərbaycanın Gürcüstandakı diplomatik nümayəndəliyinin səyi ilə yenidən qurulmuşdur.

### *Fətəli xan Xoyski haqqında sayt*

Sayt 2007-ci ilin dekabr ayında "Şəkinin səsi" və "İpəkçi" qəzetləri redaksiyası tərəfindən yaradılmışdır.

https://sites.google.com/site/fxxoyski/

### Əli və Nino (2016)-da Fətəli xan Xoyskinin obrazı

Məşhur "Əli və Nino" əsəri əsasında çəkilən eyniadlı filmdə Halit Ergenç Azərbaycan Xalq Cümhuriyyətinin ilk baş naziri Fətəli xan Xoyskinin rolunu canlandırmışdır.

Filmdə Atçılıq Federasiyasına məxsus atlar, eləcə də nadir növ Qarabağ atlarından istifadə olunmuşdur.

Filmlə bağlı digər maraqlı faktlardan biri burada istifadə olunan avtomobillərdir. Nəqliyyat vasitəsi kimi filmdə 1914-cü il istehsalı olan "Dodge" avtomobillərindən istifadə olunur. Onlardan biri Kipiani ailəsinə məxsusdur.

Qurban Səidin "Əli və Nino" romanı əsasında ekranlaşdırılan filmin icraçı prodüseri Leyla Əliyeva, prodüseri Kris Tikyer, rejissoru "Bafta" mükafatı sahibi Asif Kapadiya, ssenari müəllifi isə "Academy Award" mükafatı laureatı Kristofer Hemptondur.

Qeyd edək ki, müsəlman Əli ilə xristian Ninonun sevgi hekayəsi 1917-18-ci illərdə Bakıda bolşevik işğalı ərəfəsində baş verib.

***Bakı şəhərində prospektlərdən biri Fətəli xan Xoyskinin adını daşıyır.***




***Gəncədə Atatürk prospektində Ziyadxanovlar mülkünün divarında barelyef qoyulub.***

***Bakıda İstiqlaliyyət küçəsində Fətəli xan Xoyskinin 1918-ci ildən 1920-ci ilədək yaşamış olduğu evin divarında barelyef qoyulub.***

***Şəkidə əvvəllər Karl Marks adını daşımış küçənin adı "Fətəli xan Xoyski"yə çevrilib.***